Müəllif: Hamlet Allahverdiyev
10.04.2012 17:24

# Hardasan Q□dim G□nc□?

Tarix kitablarında Gəncə şəhərinin salınması haqqında yekdil fikir yoxdur. Onun tarixini VII-VIII-IX əsrlərə aid edirlər. Tanınmış rus alimi Y.A.Paxomov yazır ki: - “Gəncə şəhərinin yerində hələ VIII əsrin əvvəllərində eyni adda salınmış bir yaşayış məntəqəsi var idi” [1.46].

Mərhum arxeoloq İ.M.Cəfərzadənin fikrincə isə: -

“Gəncə Sasani Kavad (Qubad) tərəfindən tikilmiş, VII əsrdə (hicri 39-cu ildə) ərəblər tərəfindən salınmış və IX əsrdə Abbasilər sülaləsindən olan Bağdad xəlifəsinin fərmanı ilə inşa edilməmişdir, əksinə bu tarixlərdən çox əvvəl mövcud olmuşdur” [2.102].

Azərbaycan torpağında yaşamış ən qədim soylardan biri Kuti soy birləşməsidir. Onların Azərbaycanda olmaları e.ə. III minilliyə, Albanların məskunlaşması isə II minilliyin sonu I minilliyin əvvəllərinə təsadüf edir. Çox təəssüf ki, onların hansı dildə danışmaları haqqında dəqiq fikir söyləmək çətindir.

Araz çayından şimalda mövcud olmuş Qafqaz Albaniyasının Şimali Qərb vilayətinin mərkəzi Gəncə şəhərinin təbii iqlim şəraiti insan cəmiyyətinin formalaşmasında ilkin məskənlərdən olmuşdur. Yazılı mənbə kimi biz ancaq eramızın əvvəllərində yaşamış səyyah və tarixçilərin əsərlərindən olsa-olsa bu günümüzdən 2400 il əvvəli öyrənə bilirik. Bizim söyləyəcəyimiz fikirlər isə arxeoloji qazıntılar zamanı tapılmış məişət əşyaları, katakomba qəbirlər və oronimlərə əsaslanır.

Gəncənin cənubunda yonulmamış çay daşlarından çox qədimlərdə yaşayış yeri tikirlərmiş. “Göy-göl rayonu yaxınlığında bir neçə il aparılan arxeoloji tədqiqat nəticəsində çay daşlarından hörülmüş və 3 min illik tarixi olan qədim bir yaşayış yeri aşkara çıxarılmışdır. Üç hektara yaxın olan bu yaşayış yerinin ətrafına daşdan hasar çəkilmişdir. Buradakı evlər düzbucaqlı formadadır. Həm də evlərin divarları və döşəmələri ağ maddə ilə suvanmışdır” [3.48].

Cənubi Qafqazda metallurgiyanın yaranma tarixi haqqında alimlərin fikri üst-üstə düşmür. Tanınmış rus alimi R.Virxov və E.Şantur metallurgiyanın Qafqaza Mərkəzi Asiyadan, fransız

alim Jak de Morqan isə Dunaydan Qafqaza gəldiyini bildirir.

A.A.İyessen elmi dəlillərlə sübut edir ki, Qafqaz metallurgiyanın ən qədim məskənidir. O, Cənubi Qafqazda 5 əsas metallurgiya mərkəzinin olduğunu yazır. 1.Qərbi Gürcüstan; 2.Mərkəzi və Şərqi Gürcüstan; 3.Mərkəzi Cənubi Qafqaz; 4.Ermənistan; 5.Azərbaycan (Kür-Araz ovalığı).

Arxeoloji tədqiqatlar sübut edir ki, Albaniyada “.....e.ə. V-IV minilliklərdə misdən əmək alətləri və silahlar hazırlanmağa başlanmışdır. Lakin misdən hazırlanan alət və silahlar praktiki cəhətdən əlverişli olmadığı üçün insanlar misi qalayla qarışdırıb tunc əldə etdilər” [4.29].

III minillikdə Albaniyada erkən tunc dövründə insanlar artıq torpağı mis xışla becərmirdilər. Gədəbəydə mis mədəninin olması Albaniyada dəqiq desək Gəncədə ilk tunc alətlərin meydana gəlməsinə şərait yaratdı. Tuncun əldə edilməsi üçün 90% mis, 10% qalay lazım idi. Burada isə mis var idi, qalay isə yox. Qalay əldə edənə kimi insanlar mərgümüşdən istifadə edirdilər. İnsanlar sonralar qalayı başqa yerdən gətirirdilər, kürədə $700^0$-$900^0$-də əridib, onu istədikləri şəkildə düzəltdikləri qəlibə tökürdülər. Əldə edilmiş alətlə torpağı becərirdilər.

“Eradan əvvəl III minilliyə aid metal əridilən kürələr, daş və gildən hazırlanmış qəliblər, bir sıra tunc əşyalar, alətlər və silahlar zamanlarına görə metal işləmə sənətinin yüksək səviyyədə olduğunu göstərir” [5.45].

E.ə. II minilliyin sonu və I minilliyin əvvəllərində dəmir dövrü başladı. Bununla da II minillikdə yüksək tərəqqi və inkişaf baş verdi. Dəmir alətlərin istehsalı üçün Gəncədə gözəl şərait var idi. Onun yaxınlığında böyük dəmir yataqlarının olması bunu deməyə əsas verir ki, Qafqaz Albaniyasında dəmirin ilk istehsal yeri Gəncə şəhəri olmuşdur. Bu istehsal vasitələri zamanı dəmirin insan həyatında rolu böyükdür. Artıq dəmir alətlə yanaşı əlvan metallardan, qızıl və gümüşdən zinət əşyaları hazırlanırdı. “E.ə. III minilliyə aid olan Xaçbulaq kəndindən tapılan bir qızıl asma vədigər bəzək şeyləri bunu təsdiq edir” [6.404].

Elə bu vaxtdan insan cəmiyyətində “ana şahlıq”, “ata şahlıq”-la əvəz olundu. E.ə. III əsrdə dövriyyəyə mis pul buraxıldı. Bundan sonra məhsullar mübadilə ilə yanaşı pul dövriyyəsində işləməyə başladı.

Qədim insanların ilk məişət əşyaları gildən hazırlanırdı. Onlar gildən təsərrüfat küpləri, məişətdə işlədilən kasalar, çölməklər, badələr, çıraqlar və s. əşyalar düzəldir, sonra onu kürədə bişirirdilər. Dulusçuluğun geniş inkişafı üçün Gəncədə xammal bazası var idi. İndinin özündə də Gəncənin şimal-şərqində böyük gil yataqları mövcuddur.

**Şəkil – 1**



Yarım köçəri həyat tərzi keçirən insanlar heyvandarlıqla məşğul olurdular. Onlar qoyun, keçi, inək, camış, at və dəvə saxlayırdılar. Onun südündən yağ, pendir, şor, süzmə və ayran alırdılar. Yunundan heybə, corab, paltar, keçə, xalça toxuyurdular. Burada floranın zənginliyi onlara boyaq rəngləri alıb boyaqçılıqla məşğul olmağa, əczaçılığa da şərait yaradırdı. O zamanlardan bu günə kimi arıçılıq bu zonada ən gəlirli sahə idi. Ağacın nazik budaqlarından səbətlər toxunur, içi palçıqla suvanırdı. Bal arıları səbətin içində şan düzəldib bal yığırdılar. Bu üsulla bal istehsalı yaxın keçmişə kimi mövcud idi. Heyvanların dərisinin emalı (dabbaqlıq) kustar üsulla həyata keçirilirdi. Dəridən paltar, kəmər, ayaqqabı (çarıq), papaq hazırlayırdılar.

Albaniyada 2 növ at yetişdirilirdi. Biri qoşqu, digəri isə minik atları idi. Minik atları haqqında akademik Teymur Bünyadov yazır: "Zənnimcə Qafqazın ən qədim atlarından biri sayılan Qarabağ at cinsini hətta Midiya atlarının nəsli hesab etmək olar".

Ulularımız ovçuluqla da məşğul olurdular. Ov heyvanlarının və quşlarının çoxluğu bu sənətə meyli daha da artırırdı. Onlar mis ucluqlu oxlarla və ov itlərilə ov edirdilər. "....təxminən 5500 il bundan öncə məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar olaraq maldarlıq meydana çıxır ki, bunun nəticəsində ovçuluq təsərrüfatı öz əsas rolunu itirir" [7.17].

Qədim babalarımız yeri şumlayandan sonra dəni əllə səpirdilər. Yetişmiş məhsulu əl ilə yolurdular, sonralar sümükdən, daşdan hazırlanmış orağa bənzər alətlə taxılı biçirdilər. Misin əldə edilməsi nəticəsində metal oraqlar meydana çıxdı, bununla da daş oraqları əvvəlcə mis, tunc sonra isə dəmir oraqlar əvəz etdi. Yığılmış sünbülləri (dərzləri) vəllərlə döyər, sonra onu sovurardılar. Sovrulmuş taxıl qurudulur və təsərrüfat günlərində saxlanardı. Tədqiqatçılar göstərir ki, təxminən 5000 il bundan öncə Azərbaycanda vələmir, buğda, arpa becərilirdi. Yığılmış dəni kirkirədə yarma halına salırdılar.

**Ş kil  2**



[illegible]



[illegible]



**Şəkil 5** ... 14-15 ... Gəncə ... “Üç təpə” ...



[illegible]